**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ AKTUAL ÜZVLƏNMƏ VƏ MƏTNİN KONDENSASİYASI (SIXILMASI)

İxtisas: 5706.01 – Azərbaycan dili

Elm sahəsi: Filologiya

İddiaçı: **Dilarə Rüstəm qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2025**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**İsmayıl Babaş oğlu Kazımov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**İlhamə Həbib qızı Hacıyeva**

filologiya elmləri doktoru, dosent
**Nərgiz Musa qızı Hacıyeva**

filologiya elmləri doktoru, dosent
**Aynur Famil qızı Paşayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
**Afət İlyas qızı Rəfiyeva**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Əzəmət Murtuza oğlu Rüstəmov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dilin tarixi inkişafını, lüğət tərkibinin və qrammatik quruluşunun zənginliyini, əhatəliliyini, sabitliyini müəyyənləşdirmək üçün onu dərindən və hərtərəfli araşdırıb öyrənmək zərurəti meydana çıxır. Bu məqsədlə dildə fundamental araşdırmalar aparmaq lazım gəlir.

Bu gün Azərbaycan dil sisteminin dərkedilməsi üçün yeni perspektivlər açılır. Dil hadisələrinin, sıxılan modellərin kommunikasiyaya xidməti təyin edilir, funksional-semantik imkanları üzə çıxır. Bu tədqiqat işində aktual üzvlənmə ilə mətnin qarşılıqlı əlaqəsi, bu kontekstdə baş verən kondensasiya, dil vahidlərinin cümlə və mətn sistemində sıxılması Azərbaycan dilçiliyində ilk dəfə olaraq tədqiqata cəlb olunur.

Tədqiqat işinin aktuallığını şərtləndirən başlıca cəhətlər aktual üzvlənmə, kondensasiya və mətnin qarşılıqlı əlaqəsidir. Aktual üzvlənmə ilə qrammatik üzvlənmənin qarşılaşdırılması, nitq vahidlərinin psixolinqvistik xüsusiyyətləri və onların nitqin sintaktik quruluşundakı rolu, kondensasiyanın məna növləri (semantik, sintaktik, sintaqmatik, sintetik) və dildə yaratdığı yığcamlıq tədqiqat işinin əsasını təşkil edir. Sıxılmanın müşahidə edildiyi elliptik və yarımçıq cümlələrdə, qoşulma konstruksiyalarda, parselyasiya hadisəsi və morfolojiləşmə prosesində, mürəkkəb cümlələrin sadə cümlələrə transformasiyası nəticəsində kondensasiya hadisəsi baş verir. Dialoji, monoloji, sosial media və reklam mətnlərində, diskurslardakı yığcamlıq da sıxılmanın nəticəsi kimi özünü göstərir.

Dilçilikdə ilk dəfə aktual üzvlənmə termininin işlənməsi çex dilçisi V.O.Mateziusun adı ilə bağlıdır.[1] Cümlənin qrammatik üzvlənməsi ilə söyləmin aktual üzvlənməsinin qarşı-qarşıya durması, eyni zamanda qrammatik üzvlənmənin dil, aktual üzvlənmənin isə nitq hadisəsi olması fikri həm dünya, həm də Azərbaycan dilçilərinin əsərlərində öz əksini tapmışdı.

[1]Матезиус, В.О. О так называемом актуальном членении предложения // -Москва:Пражский лингвистический кружок.Сборник статей,-1967.-с.239-245.

Dünya dilçiliyində aktual üzvlənmənin həm cümlə, həm də mətn daxilində mövcudluğunun müəyyən edilməsi əsasında tədqiqat əsərləri yaradılmışdı. Bunlara K.E.Abduraxmanovanın mətn vasitələrinin aktuallaşması məsələsindən[2], X.S.Canibekov, Ç.Q.Xismatova və A.F.Sattarovanın aktual üzvlənmənin cümlədə rolundan bəhs edən dissertasiya işlərini[3] misal göstərmək olar. Eyni zamanda, aktual üzvlənmənin cümlədə tətbiqinin araşdırılması V.E.Şevyakova, İ.İ.Kovtunova, İ.P.Raspopov və N.V.İvanovun tədqiqat əsərlərində də öz əksini tapmışdı.

Azərbaycan dilçiliyində bu sahədə xüsusi xidmətləri olan dilçilərdən Ə.Ə.Abdullayev aktual üzvlənmənin iki hissəyə bölündüyünü, hər bir hissənin də bir neçə cümlə üzvündən ibarət olduğunu qeyd edir[4]. F.F.Əlizadə aktual üzvlənmənin cümlənin söyləm hissələrinin kommunikativ məqsədyönlülüyündən və mənasından çıxış edərək tərtib edildiyini bildirir[5]. Aktual üzvlənmə mövzusu müasir dilçiliyin görkəmli nümayəndələri K.M.Abdullayev, N.K.Abbasova, Ə.M.Cavadov, Q.Ş.Kazımov, N.S.Novruzova və başqa dilçilər tərəfindən də tədqiqata cəlb edilmişdi. Eyni zamanda, bu mövzu ilə bağlı K.N.Vəliyev, G.A.Məhərrəmova, A.Şahvələdova və başqalarının müxtəlif məqalə və konfrans materiallarına da rast gəlirik.

Azərbaycan dilçiliyində kondensasiya anlayışına rast gəlinməsə də, kondensasiyanın növləri, inkişafı və dildə yaratdığı qənaət dünya dilçilərinin əsərlərində öz əksini tapmışdı. Bu mövzu ilə bağlı tədqiqat aparan dilçilərdən Sin Yusi elmi üslubda kondensasiyanın yaranma vasitələrindən[6], L.V.Kopot və

---

[2] Абдурахманова, К.Э. Актуализация компонентов высказывания в тексте: / Автореф. дис.докт. филол. наук. / - Баку: - 2018. – 77 с

[3] Саттарова, А.Ф. Изучение актуального членения предложения в русском языке: в сопоставлении с башкирским и французским: / [Электронный ресурс].–URL: https://www.dissercat.com/content/izuchenie-aktualnogo-chleneniya-predlozheniya-v-russkom-yazyke-v-sopostavlenii-s-bashkirskim

[4] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: Zərdabi LTD MMC, - 2011. - 190 s.

[5] Əlizadə, F.F. Cümlənin aktual üzvlənməsi / F.Əlizadə. - Bakı: Bakı Universiteti, - 1998. - 112 s.

[6] Син, Юсы. Средства синтаксической конденсации в научном стиле русского

İ.A.Ustimenko rus dilinin söz birləşmələrindəki sıxılmadan, T.V.Kortava abidələrin dilində müşahidə olunan leksik-semantik və sintaktik kondensasiyadan[7], S.İ.Litvin bədii mətnlərdə baş verən sıxılmadan[8], A.N.Morozova leksik vasitələrin nitq prosesində sıxılmasından, L.L.Prisnaya mətndə baş verən semantik kondensasiya hadisəsindən[9], A.B.Şoкina isə reklam mətnlərinin sıxılmasının üstünlüyündən bəhs edir.

Həm dünya, həm də Azərbaycan dilçiləri əsərlərində sıxılmış nitq vahidlərini, sıxılmanın müxtəlif formalarına məxsus dil vasitələrini tədqiqata cəlb etmişlər. Bunlara A.M.Bəylərovanın ellipsis, H.G.Qədimovanın ellipsis və qoşulma konstruksiyalar[10], İ.B.Kazımovun parselyasiya və qoşulma konstruksiyalarla bağlı elmi məqaləsini[11], K.Ə.Həbibovanın ellipsis, R.M.Məmmədovanın fonetik qənaətlə bağlı dissertasiya işini aid etmək olar. Eyni zamanda, Z.Atajanovanın elliptik cümlələrlə bağlı dissertasiya işini[12], Y.V.Boqayavlenskaya, O.M.Kalmuxambetova, E.V.Qeorqiyeva, R.O.Zelepukin, E.A.İvançikova, F.İ.Pankov, Q.N.Rıbakova,

---

языка в зеркало китайского: /Дис.канд.филол.наук. / [Электронный ресурс]. – URL: https://www.philol.msu.ru/~ref/dcx/2016_SinYujsy_diss_10.02.01_19.pdf

[7]Кортава, Т.В. Явления лексико-семантической и синтаксической конденсации в памятниках старообрядческой письменности XVII в. В сборнике Лексикология. Лексикография (русско-славянский цикл). Русская диалектология. История русского языка / [Электронный ресурс]. – URL: https://www.conference-spbu.ru/conference/13/reports/373/

[8]Литвин, С.И. Компрессия художественного текста в двуязычной ситуации: (На материале английского и русского языков) / Автореф.дис. канд.филол.наук. / – Москва, – 2003. – 21 с.

[9]Присная, Л.Л. Явление семантической конденсации в современном тексте (некоторые особенности восприятия и порождения) / [Электронный ресурс]. – URL: https://cyberleninka.ru/article/n/yavlenie-semanticheskoy-kondensatsii-v-sovremennom-tekste-nekotorye-osobennosti-vospriyatiya-i-porozhdeniya

[10] Qədimova, H.G. Azərbaycan dilində ellipsis və qoşulma konstruksiyalar // – Bakı: Tədqiqlər, – 2004. №1, – s.129-132.

[11]Kazımov, İ.B. Azərbaycan dilində parselyasiya hadisəsi və qoşulma konstruksiyalar (Müasir türk dilləri ilə müqayisədə) // Azərbaycan dili müasir mərhələdə. – Bakı: Elm, – 1990. – s. 16-18.

[12]Атажанова, З. Роль конситуативности в образовании эллиптических предложений в казакском и узбекском языках: / Автореф.дис...канд.Филол. наук. / – Баку: – 1992. – 24 с.

N.K.Filonova, O.P.Karkoşko, T.Q.Serbinanın parselyasiya, Y.N.Vorobyova, T.A.Starodubova, N.M.Maxmudov və A.Y.Mamedovun ellipsislə bağlı elmi məqalələri də bu qəbildəndir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir Azərbaycan dilində aktual üzvlənmə və mətnin kondensasiyasıdır (sıxılmasıdır). Tədqiqatın predmeti aktual üzvlənmənin tətbiq olunduğu müxtəlif quruluşlu cümlə və mətn növləri, kondensasiyanın təzahür etdiyi sıxılmış sintaktik vasitələrdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan dili mətnləri əsasında aktual üzvlənmənin linqvistik mahiyyətini, aktual üzvlənmə ilə qrammatik üzvlənmənin ümumi və fərqli xüsusiyyətlərini müəyyənləşdirmək, aktual üzvlənmə ilə mətnin bağlılığını aydınlaşdırmaq; sintaksisi nitqin quruluş əlaqələrini öyrənən bölmə, mətni isə əsas kommunikativ ünsiyyət vahidi kimi nəzərdən keçirmək; dil hadisəsi kimi kondensasiyanın mahiyyətini və əhəmiyyətini aydınlaşdırmaq, cümlədə və mətndə kondensasiyanın təzahür formalarını müəyyənləşdirməkdən ibarətdir.

Bu məqsədlə aşağıdakı vəzifələr yerinə yetirilir:

- Dilçilikdə aktual üzvlənmə anlayışının mahiyyətini müəyyənləşdirmək, aktual üzvlənmənin mətn linqvistikası sistemində yerini və mövqeyini dəqiqləşdirmək;
- Aktual üzvlənmə ilə qrammatik üzvlənmənin ümumi və fərqli xüsusiyyətlərini müəyyən etmək, aktual üzvlənmədə intonasiya və söz sırası formal vasitələrini dəqiqləşdirmək, tema və remanı formalaşdıran leksik-qrammatik vasitələri aşkar etmək;
- Aktual üzvlənmə (məna üzvlənməsi) və mətn münasibətlərini aydınlaşdırmaq, mətnin aktual üzvlənməsi və mətn vahidlərinin qarşılıqlı əlaqəsini təyin etmək;
- Sintaksisi nitqin quruluş əlaqələrini öyrənən bölmə kimi nəzərdən keçirmək;
- Aktual üzvlənmə sferasında mətni əsas kommunikativ vahid kimi nəzərdən keçirmək, aktual üzvlənmənin mətnlə bağlılığını aşkar etmək, onun funksional-kommunikativ və praqmatik aspektləri ilə bağlı olmaqla nitq prosesindəki mövqeyini müəyyənləşdirmək;
- Kondensasiya hadisəsinin formal əlamətini və mahiyyətini müəyyənləşdirmək, canlı nitqdə, danışıqda və bədii əsərlərdə

sıxılmanın funksional-üslubi imkanlarını üzə çıxarmaq;

- İmplikasiyanın mahiyyətini açmaq və kondensasiyanı implikasiyanın əsas yaranma səbəbi kimi üzə çıxarmaq, kondensasiyanın digər sıxılma formaları ilə uyğunluğunu müəyyənləşdirmək;
- Mətndə tema və rema ardıcıllığını və bu düzülüşdə sıxılma prosesini izləmək, sıxılmanın spesifik və xüsusən də, ümumi struktur-semantik, funksional-kommunikativ əlamətlərini müəyyən etmək;
- Sadə və mürəkkəb cümlə sistemində kondensasiyanın baş vermə səbəblərini və sıxılmanın əhəmiyyətini müəyyən etmək;
- Mətndə kondensasiyanın funksional-kommunikativ imkanlarını üzə çıxarmaq, sıxılmanın səbəblərini və təzahür formalarını müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Tədqiqat işinin qarşısında duran məsələlərin araşdırılmasında təsviri və müqayisəli metoddan istifadə edilmişdi. Eyni zamanda, cümlələrdə və mətndə sıxılaraq qısaldılan dil vahidlərinin təhlilində kontekstual təhlil metodundan, mürəkkəb strukturlu cümlələrin sadə cümlələrə çevrilməsi prosesində isə transformasiya üsulundən istifadə olunub.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Aktual üzvlənmə mətnin açarıdır. Aktual üzvlənmə mətnin struktur və semantikasında baş verən dəyişikliklərə birbaşa “cavabdehdir”.
2. Aktual üzvlənmənin (tema və rema əvəzləməsi) cümlələrdə və mətn sistemində xüsusi yeri və rolu vardır.
3. Nitq hadisəsi olan aktual üzvlənmə cümlənin söyləm funksiyasının əsas göstəricisidir.
4. Mənası açıq şəkildə verilməyən dil vahidi - implikasiya nitq elementlərinin sıxılması nəticəsində yaranır.
5. Kondensasiya universal dil hadisəsidir. Bu hadisə sintaktik quruluşun yeni istiqamətdə formalaşmasında mühüm yer tutur.
6. Kondensasiya itirilmiş mətn hissələrini yeni tərkibdə (sıxılmış dil vahidləri ilə) üzə çıxarır.
7. Kondensasiya dilin mühüm qənaət vasitəsidir. Dildə və

nitqdə təkrarçılığı, artıqlığı aradan qaldırır.

8. Sadə cümlələrdə kondensasiya cümlə üzvlərindən bir və ya bir neçəsinin ixtisarı nəticəsində baş verir.

9. Mürəkkəb cümlələr sadə cümlələrə transformasiya edərək, tərkib elementlərinin sıxılması ilə kondensasiyaya uğrayır.

10. Mətndə sintaktik vahidlərin tərkibi sintaktik hadisələr sayəsində kiçilir.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq dissertasiya işində Azərbaycan dili mətnlərində tema-rema əsasında sintaktik-semantik kondensasiya hadisəsi tətqiq olunur. Nitqin, mətnin aktuallığını, yığcamlığını təmin etmək üçün sıxılma prosesini həyata keçirən cümlə və mətn vasitələrindən istifadə edilir; sıxılmanın parselyatlar, elliptik, yarımçıq və qoşulma cümlələrdə, monoloji, dialoji, sosial media, reklam mətnlərində və diskursda təzahürü müəyyən edilir. Sıxılma nəticəsində mətni təşkil edən cümlələrin quruluşu və həcmi dəyişir: mürəkkəb quruluşlu cümlələr sadə cümlələrlə əvəz olunur, nitqə ağırlıq gətirən dil vahidləri ixtisar olunaraq çıxarılır. Nəticədə cümlələrdə monopredikativ struktur yaranır. Dil formalarının transformasiyası cümlənin, mətnin struktur cəhətdən çevrilməsinə, həcminin kiçilməsinə səbəb olsa da, bu mətndə ifadə olunan məzmunu, informasiya yükünü azaltmır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Mətndə tema və remanın sıxılması, informasiyanın qısa, yığcam və aydın şəkildə təqdim edilməsi oxucu və dinləyicinin daha asan anlamasına və qavrayışına kömək edir. Bu baxımdan, nitq sintaksisi, aktual üzvlənmə, mətn vasitələrinin sıxılması, nitqin sintaktik və semantik quruluşunun öyrənilməsində dissertasiyanın nəzəri materialları xüsusi rol oynaya bilər.

Tədqiqatın nəticələrindən Sintaksis və mətn dilçiliyi, Müasir Azərbaycan dili, Öyrənilən əsas dil (sintaksis, mətn sintaksisi bölmələrində), Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (nitqə verilən tələblər bölməsində) fənlərinin tədrisində və bu fənlərə aid tədris proqramlarında da istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Sumqayıt Dövlət Universitetinin Elmi Şurasında təsdiqlənmiş, (03.02.2016, Pr.

06), həmçinin Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası nəzdində Filologiya Problemləri üzrə Elmi Şura tərəfindən təsdiq olunmuşdu (28 aprel 2016-cı il, protokol №03). Tədqiqatın əsas məzmunu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qeydiyyatında olan müxtəlif respublika əhəmiyyətli elmi jurnallarda, eləcə də, xarici ölkələrdə nəşr olunmuş məqalə və tezislərdə öz əksini tapmışdı. Müəllif Azərbaycan dilçiliyinin müxtəlif problemləri ilə bağlı respublika və beynəlxalq səviyyəli elmi-nəzəri konfranslarda, Sumqayıt Dövlət Universitetinin və digər təhsil müəssisələrinin təşkil etdiyi vebinar, təlim və forumlarda iştirakçı olmuşdu. Tədqiqatla bağlı 7 məqalə, 9 konfrans materialı və 3 tezis çap olunub.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla əsərin işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə (10406 işarə), I Fəsil 46 səhifə (83947 işarə), II Fəsil 35 səhifə (61480 işarə), III Fəsil 37 səhifə (60734 işarə), Nəticə 2 səhifə (3153 işarə), İstifadə olunmuş ədəbiyyat siyahısı 18 səhifədir. Dissertasiya işi ümumilikdə 146 səhifə, 219720 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqqatın nəzəri və praktik əhəmiyyəti, aprobasiya və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı haqqında məlumat verilir.

Birinci fəsil "**Aktual üzvlənmə və mətn**" adlanır. Fəsil üç paraqrafdan ibarətdir. Birinci fəslin birinci paraqrafı **"Aktual üzvlənmə və qrammatik üzvlənmə"** adlanır. Burada cümlənin söyləm funksiyasının əsas göstəricisi, nitq hadisəsi olan aktual üzvlənmə ilə dil hadisəsi olan qrammatik üzvlənmə qarşılaşdırılır.

Qrammatik üzvlənmənin 5, aktual üzvlənmənin 2 üzvü var (Tema-rema sırası aktual üzvlənməni müəyyənləşdirir). Şifahi nitqdə aktual üzvlənmə bir cümləni müəyyən intonasiya ilə müəyyənləşdirir, qrammatik üzvlənmə isə intonasiya ilə bu cür əlaqəyə malik deyil, münasibət qura bilmir. Potensial sintaksisdə cümlə üzvləri öz məzmunu və mahiyyətini dəyişə bilmir. Aktual üzvlənmədə isə məntiqi-dinamik vurğunun hansı sözə düşməsindən asılı olaraq tema və rema durumlarını dəyişə bilir. Qrammatik üzvlənmə cümlənin xarakterini tam aça bilmir, cümlənin nitq prosesindəki semantik-funksional xüsusiyyətlərini izah etməyə qabil deyil. Cümlənin kommunikativ mənasını müəyyən edən informasiya komponentlərinin cümlədə fərqləndirilməsi qrammatik üzvlənmə əsasında deyil, cümlənin aktual üzvlənməsi bazasında baş verir.

Aktual üzvlənmə terminini ilk dəfə linqivistik sahəyə gətirən çex dilçisi V.O.Mateziusun nöqteyi-nəzərincə, aktual üzvlənmə dilin supra-sintaktik hadisələrindən biridir, həmin hadisə aktual üzvlənmənin ümumi və diferensial xüsusiyyətlərini ortaya çıxarır. Belə ki, bir sıra durumlarda linqvistikada olan fərqli üzvlənmələr bir-birinə qarşı qoyulur. Elə buna görə də hər iki üzvlənmə qeyd olunan cəhətlərinə görə bir-birindən fərqlənir.[13]

F.F.Əlizadə yazır ki, aktual üzvlənmə xüsusi bir təhlil səviyyəsi kimi cümlənin kommunikativ istiqamətinə qarşı qoyulur. Aktual üzvlənmənin mahiyyəti cümlənin qrammatik, leksik və intonasiyaca təşkilindən ibarətdir və o, danışanın cümlənin söyləm hissələrinin kommunikativ məqsədyönlüyündən və mənasından çıxış edərək tərtib etməsindən asılıdır.[14]

Aktual qrammatika ilə müqayisədə ənənəvi qrammatikanın cümlənin sintaktik quruluşu haqqındakı təlimi nisbətən bəsitdir. Çünki o, cümlənin yalnız struktur təşkilinin formal tərəfini götürür, lakin onun ünsiyyət prosesindəki real funksiyalarının bütün dəyişkənliklərini nəzərə almır. Qrammatika fikrin axarını da nəzərə almalıdır. Aktual üzvlənmə cümlənin öz təbiətindən meydana çıxdığı

---

[13]Матезиус, В.О. О так называемом актуальном членении предложения // - Москва:Пражский лингвистический кружок.Сборник статей,-1967.-с.239-245.

[14] Əlizadə, F.F. Cümlənin aktual üzvlənməsi / F.Əlizadə. - Bakı: Bakı Universiteti, - 1998. - 112 s.

və onun kommunikativ mahiyyətini bildirdiyi üçün sintaktik vahidin ayrılmaz hissəsi hesab oluna bilər.

Cümlənin aktual üzvlənməsi sözlərin ardıcıllığı ilə bağlıdır. Aktual üzvlənmənin hər bir cümlədə iki komponenti mövcuddur. O, əvvəlki məlum olan ifadəni, temanı və bəlli informasiyanı inteqrasiya edir (birləşdirir), bu isə situasiya və şəraitdən, yəni temanın ünsiyyət məqsədindən asılı olur, bu vaxt eşidənə ona bəlli olmayan yeni məlumat ötürülür.

Ə.Ə.Abdullayev də bir qrammatik struktura malik olan cümlənin birdən artıq hökm bildirdiyini qeyd edir. Eyni bir cümlənin aktual üzvlərinin miqdarını həmin cümlə ilə ifadə olunan hökmlərin miqdarı ilə müəyyənləşdirir. Eyni zamanda, bir qrammatik strukturlu cümlənin müxtəlif aktual üzvlənməyə malik oduğunu da bildirir.[15]

K.N.Vəliyev qeyd edir ki, ənənəvi qrammatik üzvlənmə cümlənin informativ yükünü aça bilmir, bu zaman cümlənin nitq təcrübəsindəki semantik-funksional ifadəsi məsələsi açıq qalır. Əslində, aktual üzvlənmə qrammatik üzvlənməni inkar etmir və inkar edə də bilməz. Çünki bunlar ayrı-ayrı rakurslardır və hər bir dilin öz spesifikasına uyğun zənginliklərə malik olub ifadə-məzmun planları kimi ortaya çıxırlar.[16]

Cümlənin təyinatına uyğun olaraq, onun qrammatik üzvləri müxtəlif məna yükü daşıyır. Ancaq bununla belə, qrammatik üzvlər arasındakı formal-sintaktik münasibət dəyişməz qalır. Qrammatik üzvlənmə cümlənin xarakterini tam aça bilmir, cümlənin nitq prosesindəki semantik-funksional xüsusiyyətlərini izah etməyə qabil deyil. Cümlənin kommunikativ mənasını müəyyən edən informasiya komponentlərinin cümlədə fərqləndirilməsi qrammatik üzvlənmə əsasında deyil, cümlənin aktual üzvlənməsi bazasında baş verir. Aktual üzvlənmədə söylənilən fikrin məqsədyönlülüyü aşkarlanırsa, qrammatik üzvlənmədə cümlə üzvlərinin bir-biri ilə konstruktiv əlaqəsi əsasında əşya, əlamət və hərəkət arasındakı obyektiv əlaqələr müəyyənləşir. Sanki qrammatik üzvlənmə aktual üzvlənmə sayəsində

---

[15]Abdullayev, Ə.Ə. Aktual üzvlənmə və mətn / Ə.Abdullayev. – Bakı: Xəzər Universiteti, - 1998. - 173 s.

[16]Vəliyev, K.N. Cümlənin semantik üzvlənməsi // - Bakı: “Azərbaycan dilçiliyi məsələləri” elmi əsərlərin tematik məcmusu, - 1981. - s. 45-51.

məqsədyönlü təşkil olunmuş, formaya salınmış fikir, nitq materialıdır. Hər iki üzvlənmə eyni reallığa malik olsa da, cümlədə müxtəlif semantik-funksional struktur rolunu oynayır.

Birinci fəslin ikinci paraqrafı **"Aktual üzvlənmənin mətnin qurulmasında rolu"** adlanır. Burada aktual üzvlənmənin mətnin formalaşmasında, eləcə də, mətnyaratmada formal-qrammatik vasitələrlə yanaşı, mətni müəyyənləşdirən əlaqələrin də mühüm rola malik olmasındandan bəhs olunur.

Mətndəki cümlələrin bir-birilə sintaktik cəhətdən qarşılıqlı bağlılığı düzgün mətnin yaranması üçün yetərli deyil. Mətni təşkil edən cümlələr arasındakı semantik bağlılıq da mətnin əsas xarakterik cəhətidir. Çünki mətnin semantik göstəricisi cümlələrin təsadüfi yığımından deyil, onların məna cəhətdən bir-birilə əlaqələnməsindən ibarətdir. Semantik bağlılıq nəticəsində mətnlər elə qurulmalıdır ki, cümlələrin bir-birilə zəncirvari əlaqəsi qırılmasın. Yəni cümlələri iki hissəyə ayırmaq və ya cümlələrin yerini dəyişmək mümkün olmasın, hər bir cümlə özündən əvvəlki və sonrakı cümlələrlə əlaqələnsin.

*Küçənin üstü də parkdır. Şəhərin ən səfalı istirahət guşəsi sayılan Dağüstü park. Parkın ətəyi evlərin damına düşür. Buradan Nargin adası aydın seçilir. Dəniz ilin hər fəslində öz rəngi, havası ilə görünür.*[17]

Mətndə birinci cümlə giriş cümlə olduğundan sintaktik bütövün əsas məna yükünü daşıyır. Ardıcıl gələn digər cümlələr üçün açar cümlə rolundadır, hər bir cümlə sanki ondan bəhrələnir. Struktur cəhətdən ikinci cümləni birinci cümlənin yerində işlətmək qeyri-mümkündür, çünki bu halda məna qarışacaq, ardıcıllıq pozulacaq.

Mətnin komponentləri arasındakı məntiqi bağlılıq mətnin əsas əlamətidir. Məhz bu bağlılıq sayəsində cümlələrin sadə ardıcıllığı mətnə çevrilir. Həmin bağlılıq iki cümlə ilə də, yaxud daha artıq sayda cümlə ilə reallaşa bilər. Mətnin yaranmasına xidmət edən struktur, ardıcıllıq, hissələrin münasibliyi bağlılığın əsasını, mətnin özülünü təşkil edir.

---

[17]Əhmədov, S.M. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 2. – 1990. – 352 s.

Hər bir mətnin komponentlərinin aktual üzvlənməsi mətnin semantikasının öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Əgər tema cümlələr arasındakı semantik bağlılığı yaradırsa, bu da davamlı olaraq növbəti cümlələrin yaranmasına şərait yaradır. Bu ardıcıllıqda yeni informasiyanı verən cümlələr isə remanı təşkil edir.

Nitqin sintaktik quruluşunu öyrənən, aktual sintaksisin əsas göstəricisi olan aktual üzvlənmə yalnız cümlə daxilində deyil, eyni zamanda cümlələr arasındakı əlaqələri də qaydaya salır, nizamlayır. Həm də aktual üzvlənmə mətnlə bağlı bir məsələ olduğundan mətndəki informasiyaları açmağa, ayrı-ayrı elementlərin izahını verməyə kömək edir. Bu baxımdan mətnin yaranmasında aktual üzvlənmənin böyük rolu vardır. Aktual üzvlənmədə semantik struktur əsas olduğundan mətndəki cümlələrin ardıcıllığı da ona əsaslanır. Aktual üzvlənmə hansı cümlənin mətnin əvvəlində, hansı cümlənin isə mətnin sonunda işlədilməsi və ya işlədilə bilməməsini müəyyən etmək baxımından çox əhəmiyyətlidir.

Birinci fəslin üçüncü paraqrafı **"Aktual üzvlənmə və nitq yaradıcılığı prosesi"** adlanır. Ənənəvilikdən fərqli olaraq, burada sintaksisin dilin deyil, nitqin quruluş əlaqələrini öyrənməsindən, dil və nitqin qarşılıqlı əlaqəsi və onlar arasındakı fərqlərdən bəhs olunur.

Dil və nitq anlayışları bir-birilə qarşılıqlı əlaqədə olub bir-birini tamamlasa da, onların tətbiq olunma sahələri fərqlidir. Dil ictimai həyatda qazanılmış bilik və məlumatların sözlər və cümlələrlə ifadəsi, fikir mübadiləsinin əsas vasitəsidir. Dillə nitq arasındakı əlaqə obyektiv zərurətdən doğur, çünki dil öz mətni varlığını nitqdə tapır, nitq isə mənbəyini dildən götürür. İnsanlar fikirlərini nitqlə ifadə edir, nitqdə formalaşdırır. Ümumi və ictimai səciyyəli dil nitqə nisbətən sabit, fərdi və xüsusi səciyyəli, nitq isə dilə nisbətən daha dinamikdir.

Məşhur dilçi Ferdinand de Sössür də dil və nitq məsələsinə toxunaraq, dili sistem, nitqi isə proses adlandırır. Qeyd edir ki, sistemi prosessiz təsəvvür etmək olar, amma proses sistemsiz yaşaya bilməz. F.de Sössür dili nitq fəaliyyətinin tərkibindən ayıraraq ona

işarələr sistemi kimi baxırdı. O, dili abstrakt sistem, nitqi isə konkret, danışma prosesi hesab edir.[18]

Aktual üzvlənmə mühüm bir faktı təsdiqləyir ki, cümlə (söyləm) ayrıca mövcud ola bilmir. Hər bir cümlə (söyləm) nəyinsə davamı və ya başlanğıcıdır. Mətndən ayrı götürüldükdə cümlənin formal-qrammatik aspekti təhlil oluna bilər, lakin söyləm ünsiyyət vahidi olduğundan onu yalnız və yalnız mətnin sərhədində təhlil etmək lazım bilinir, tələb olunur. Aktual üvlənmə cümlənin söyləm funksiyasının göstəricisi hesab edilir. Söyləm kommunikativ vahiddir. Dildə cümlə, nitqdə söyləm terminlərindən istifadə olunur.

Mahiyyətinə görə psixi və konkret olan, işarələr sistemindən təşkil olunmuş dil məna və akustik obrazın birləşməsindən əmələ gəlmişdi. Dil işarələrini yazıda şərti işarələrlə göstərmək mümkündür. Nitq aktını isə bu formada əks etdirmək qeyri-mümkündür. Dil ilə nitq bir-birilə bağlı olmaqla yanaşı, həm də bir-birini şərtləndirir. Belə ki, dil nitqin anlaşılan olması üçün lazımdırsa, nitq də dilin təşəkkül tapması, inkişafı üçün zəruridir. Kommunikasiya vasitəsi olan dil dilçiliyin tədqiqat obyekti olduğu halda, ünsiyyət prosesi olan nitq isə psixolinqivistikanın əsas tədqiqat obyektidir. Psixologiya nitqin yaranması, anlaşılması və formalaşmasının gedişi zamanı öz diqqətini daha çox şüurun psixi funksiyalarının xüsusiyyətlərinə yönəldirsə, psixolinqvistika bunlarla yanaşı bu funksiyaların insanların nitq fəaliyyətində və nitq davranışında ifadə vasitələrini də nəzərə almağa çalışır.

Dilçilik ilə psixolinqvistikanın ortaq mövzusunun dil sistemi olduğunu bildirən V.P.Belyaninin fikrincə, dilçilik də, psixolinqvistika da sözə və mətnə istinad edir. Dilçilik nitqin dil qanunlarında uyğun şəkildə öyrənilir. Amma məlumdur ki, nitq insanların ünsiyyət sisteminə daxildir, onu insanlar yaradır və insanların qarşılıqlı münasibəti üçün vacibdir.[19]

Dissertasiyanın ikinci fəsli "**Kondensasiya (sıxılma) dil hadisəsi kimi**" adlanır. Fəsil iki paraqrafdan ibarətdir. İkinci fəslin

[18] Ferdinand de Sössür. Ümumi dilçilik kursu / Ferdinand de Sössür. – Bakı: BDU, - 2003. - 407 s.

[19]Белянин, В.П. Психолингвистика: Учебник (2-е изд) / В.П.Белянин. - Москва: Флинта: Московский психолого-социальный институт, -2004. - 232с.

birinci paraqrafı **"İmplikasiya və kondensasiyanın (sıxılmanın) dildə rolu"** adlanır. Burada qeyd olunur ki, implikasiya söyləmin üst strukturunda məna ifadəsinin olmaması və onun müəyyənləşməsi ilə bağlıdır. İmplikasiya - yanaşı işlənən dil vahidlərinin kontekstindən yaranan və birbaşa mənası göstərilməyən dil vahididir. Əgər məna açıq şəkildə ifadə olunmursa və ya dolayısı ilə təqdim olunursa, nəticədə gizli məna yaranacaqdır. Məna və məzmun açıq şəkildə ifadə olunmayan implikasiyada deyilən üstüörtülü ifadələrlə danışan öz fikrini qarşı tərəfə çatdıra bilir. Məsələn:

- *Sənin işin nə haldadır?*

- *Yazmır. Yaman dirəşib.*[20]

Yuxarıda göstərilən dialoq hissələrində nitq sahibi fikrini birbaşa deyil, dolayısı ilə tərəf müqabilinə çatdırır.

Latın mənşəli, sıxlaşdırılmış mənasını ifadə edən "condens" sözündən götürülmüş kondensasiya (sıxılma) dil hadisəsidir. Bu prosesin xarakteri nitqin aktuallığı ilə bağlıdır. Nitqin tez çatdırılması, yığcamlığı, qənaəti təmin etmək bu prosesin xarakterini müəyyənləşdirən başlıca faktorlardandır. Linqvistik kondensasiya da öz növbəsində bir sıra növlərə ayrılır:

1. Semantik kondensasiya: Mətndə informasiyanın sıxılması, informasiyaya qənaət edilməsi semantik kondensasiya ilə bağlıdır.

2. Sintaktik kondensasiya: Əvəzetmə kriterasiyasına uyğun olaraq sintaktik quruluş dəyişir, budaq cümlə sadə cümləyə çevrilir.

3. Sintaqmatik kondensasiya: Əlavənin işlənməməsi ilə bağlı yaranan sintaqmatik kondensasiya: Məs.: *Nazim texniki nəzarətçi oturduğu yerdən dəzgahların necə işlədiyini izləyir.*[21] *- Texniki nəzarətçi oturduğu yerdən dəzgahların necə işləndiyini izləyir*.

Kompressiyanın (sıxılmanın) bir tipi sintetik sıxılmadır. Bu sıxılma sözlərin, adların ixtisarıdır. Məs.: *YAP – Yeni Azərbaycan Partiyası, SDU – Sumqayıt Dövlət Universiteti, BDU – Bakı Dövlət Universiteti, TEC - Tələbə Elmi Cəmiyyəti* və s.

---

[20] Əhmədov, S. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 1. – 1989. – 462 s.

[21]Yenə orada. s. 79.

S.K.Levinson qeyd edir ki, sözün mənası danışanın niyyətləri haqqında birbaşa fərziyyələri deyil, dilin, adətən, necə istifadə olunduğuna dair ümumiləşdirilmiş fərziyyələrə əsaslanır.[22]

İkinci fəslin ikinci paraqrafı **"Kondensasiya (sıxılma) və aktual üzvlənmə"** adlanır. Burada qeyd olunur ki, kondensasiya dilin bütün səviyyələrində olduğu kimi, mətn səviyyəsində də özünü göstərir. Bu sıxılma aktual üzvlənmə ilə birbaşa bağlıdır. Deməli, mətnin başlıca xüsusiyyətlərindən biri də onun sıxılmaya, lakonikliyə, yığcamlığa meyil göstərməsidir. Sıxılan mətnin kriteriyası minimal ölçüyə malik olmasıdır. Sıxılan mətnlər ifadə olunan fikri tez çatdırır, eyni zamanda mətnin emosionallığını artırır.

Sıxılmanın aktual üzvlənmə ilə bağlılığı tema-rema münasibətlərində meydana çıxır. Mətndə tema (mövzu) və rema (predikat) sıxıla bilir. Yəni mətnin mövzusu semantik cəhətdən yığcamlaşır, artıq elementlər, konstruksiyalar atılır. Ona görə də mətnin komponentlərinin aktual üzvlənməsi, yəni tema-rema əvəzlənməsi mətnin semantikasının öyrənilməsində böyük rola malikdir. Tema cümlələr arasında semantik bağlılıq yaradır, nəticədə bir cümlədə qeyri-müəyyən olan sonrakı cümlədə müəyyənləşir. Bu ardıcıllıqda hər bir cümlədə verilən yeni informasiya remanı təşkil edir.[23]

Linqvistik prinsiplərə görə bədii mətnlərdə ən çox xəbər (və ya xəbər zonası, əsasən elliptik cümlələrdə) kondensasiyaya məruz qalır. Rema ( predikat) "yeni"ni, yarımçıq formada oxucuya çatdırır. "Yeni məlumatlar" oxucuya təkcə tam formada deyil, həmçinin də kondensasiya olunmuş şəkildə çatdırılır. Sıxılmış rema fikrin inkişafına, irəliləməsinə, dərinləşməsinə, dinləyicinin, oxucunun yeni informasiyalarla təmin edilməsinə səbəb olur və nəticədə temanın situasiyadan, danışanın, yazanın intensiyasından asılı olaraq, yeni xüsusiyyətləri aşkarlanmış durumda olur.

Sintaktik kondensasiya növündə aşağıdakı xüsusiyyətlər özünü göstərir:

---

[22]Levinson, S.K. Presumptive meaning: The Theory of Generalized Conversational Implicature / S.K.Levinson. – Cambridge, Mass: MIT Press, - 2000. – 186 p.
[23]Kazımov, Q.Ş. Azərbaycan dilinin qrammatikası, Morfologiya, Sintaksis / Q.Ş.Kazımov. – Bakı: Elm və təhsil, - 2017. - 888 s.

1. Elliptikləşmə prosesində dil işarələrinin sıxlaşdırılması: *İlhamla irəli* (gedək)*! Karonavirusla mübarizə* (aparaq)! - Bu cümlələrdə kondensasiyanın aktual üzvlənməyə təsiri rema hissəsinin ixtisar olunması ilə müşahidə olunur.

2. Qrammatik yarımçıqlıq*: Evlənmək məhək daşı* (Evlənmək məhək daşı *imiş*)

3. Bağlayıcısız formalar: *Lal Hüseyn bu sözləri o zaman dedi, onda Rüstəm kişi maşından düşüb onlara tərəf gəlirdi.*

4. Sintaktik asimmetriya*:* Bura sintaktik sinonimlik də daxildir. Əsasən iki eyni cümlənin arasında olan məna bərabərliyi sintaktik sinonimdir. Bu formalardan biri sıxılır. Məs.: *Bacım nə zaman məni görərdisə, hal-əhval tutardı - Bacım məni görəndə hal-əhval tutardı.*

Buradan aydın olur ki, aktual üzvlənmə və sıxılmış mətn probleminin tədqiqi mətndə məlum olanın və yeni fikrin durumunu, eləcə də, mətnin informasiya blokunun az miqdarda dil vahidlərilə ifadəsinə yardım göstərir.

Mətndə sıxılma vasitələri kimi abreviatur, univerballaşma, ellipsis, parselyasiya, qoşulma, ekspressivlik və s. hadisələrə geniş yer ayrılır. Mətn diskurslarına müxtəlif ekstralinqvistik amillər təsir edir. Bu təsir nəticəsində mətn sıxılır və mətndə məzmun qısa dil vasitələri ilə təqdim olunur.

Dissertasiyanın üçüncü fəsli **"Kondensasiyanın (sıxılmanın) dildə təzahürü"** adlanır. Fəsil üç paraqrafdan ibarətdir. Üçüncü fəslin birinci paraqrafı **"Cümlədə kondensasiyanın (sıxılmanın) təzahür formaları"** adlanır. Burada qeyd olunur ki, mətn cümlələrin birliyindən yarandığı üçün sıxılma həmin konstruksiyaların quruluşunda özünü göstərir. İlk növbədə ellipsis hadisəsinin nəticəsi olan ***elliptik cümlələr*** vasitəsilə mətndə baş verən sıxılmadan bəhs olunur. Dil inkişaf etdikcə onda yeni ənənələr, hadisələr yaranır. Məna yükünü qoruyub-saxlamaqla informasiyanın müəyyən hissəsi potensial (gizli) duruma düşür, sintaktik vahiddə sıxılma – müəyyən üzvün buraxılması, yəni ellipsis hadisəsi baş verir. Ellipsis bütün dil vahidlərində, xüsusilə də sintaktik vahidlərdə - sadə və mürəkkəb cümlələrdə, mətndə özünü göstərir. Ellipsis hadisəsi dialoq şəraitində sıxılmaya gətirib çıxarır.

Kondensasiyanı yaradan elliptik cümlələr mühüm ünsiyyət vahidi olmaqla yanaşı, həm fikir mübadiləsi prosesində, həmçinin də, humanist duyğuların, daxili sarsıntıların, emosiyaların və s. durumların təzahürü anında istifadə olunur. Mürəkkəb cümlələrin sıxılması ilə fikrin yığılmasına şərait yaradan elliptik cümlələr ünsiyyət yaratmaq üçün də əlverişli vasitədir. Məs.:

*Sən çörəyi ellərdən, suyu göllərdən…* (atalar sözü); *Ağ ayran ağaclar dibində…, Qara kişmiş bəylər çibində…*(atalar sözü)

K.Həbibova yazır ki, semantik ellipsis hadisəsi dialoq nitqində də geniş yer tutur. Dialoq zamanı bu, informator və adresatın qarşılıqlı ünsiyyət prosesindəki intellektual səviyyələrin nə dərəcədə inkişaf etməsindən asılı olur.[24]

Aktual üzvlənmə və sıxılmış mətn sintaksisinin öyrəndiyi problemlərdən biri də ***parselyasiyadır.*** "Parselyasiya" fransız sözüdür, "parseller" sözündən götürülmüşdü. Azərbaycan dilində mənası "cümlənin hissələrə, parçalara, parsellərə ayrılması" deməkdir. Parselyasiya hadisəsi mətni üzvləndirmə vasitəsidir. Bu cəhətdən parselyasiya mətndə sıxılma yaratmaqla yanaşı, ekspressiv sintaksisin sahəsinə daxil edilmişdi. Bütöv olan cümlələr kəsilərək aralıq formalar yaranır, intonasiya sırası kəsik cümlələri xüsusi hala salır. Hər bir nitq vahidi əvvəlki cümlə ilə müqayisədə kiçilir, qoşulan parselyatlar bazis cümləyə yenidən əlavə olunur. Mətndə parselləşmiş konstruksiyalar funksionallaşır. Parçalanan sintaktik struktur sıxılmış durumda kommunikativ vəzifəni ekspressiv çalarda yerinə yetirir. Parselyat söyləmin remasını təşkil edir. Məs.:

*Cəbonun da gözü gəzirdi. Qulağı səsdə idi.*

*Qız çox acıqlanmışdı. Özünə də, briqadirə də.*

Parselyasiya söyləmlər arasında parçalanma; uzun pauzadan sonra yaranan xüsusi intonasiya zamanı sintaktik əlaqənin kəsilməsi; intonasiya və canlı danışıq nitqini çatdırmaq cəhdi; predikativ xüsusiyyət; dil vasitələrinə qənaəti və həmçinin nitqin lakonikliyini təmin etmək; bədii təsvir vasitələrinin nitqin ifadəliliyini formalaşdırmasıdır.[25]

---

[24] Həbibova, K.Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dilində qənaət prinsipinin psixolinqvistik şərhi // Türkologiya, - 2014. № 4, - s.75-84

[25]Калмухамбетова, О.М. Парцеллированные конструкции в розе постмедерна

***Qoşulmalar***, başlıca olaraq, söyləmin "yeni"ni ifadə edən, hadisələrin rasional inkişafını şərtləndirən əlamətlərinin xüsusi nəzərə çarpdırılması əsasında meydana çıxır. Qoşulmalar əsasən söyləmdən - özül cümlədən qopub-ayrılan və özünü mətndə rəngarəng biçimdə göstərən sintaktik vahiddir.

- *Çörək yeməyəcəyik... O vaxt gələ bilməmişik. Gərək bağışlayasanız.*[26]

Cümlədə fikir sanki yarımçıq qalır, lakin müəyyən fasilədən sonra ixtisar edilmiş yeni cümlələr qoşularaq (üç nöqtədən sonra) fikir tamamlanır.

Danışan və yaxud yazan nitq prosesində təkrara yol verməmək, vaxta qənaət etmək, fikri daha aydın, emosional şəkildə çatdırmaq, nitqin təbiiliyini və aktuallığını təmin etmək üçün bəzi cümlə üzvləri ixtisar edilir. Əsas məna yükünü daşıyan, zəruri və rasional fikri ifadə edən üzvlər isə saxlanılmaqla ***yarımçıq cümlələr*** formalaşır. Buraxılmış üzvlərin mənası mövcud olan üzvlərin vasitəsilə, situasiya və mətn şəraitinə uyğun olaraq dərk oluna bilir. Ünsiyyət prosesini asanlaşdıran yarımçıq cümlələrdə buraxılmış üzvlər asanlıqla bərpa oluna bilir. Mətn şəraiti olmasa, yarımçıq cümlələr mətndən kənarlaşdırılsa və situasiya nəzərə alınmazsa, yarımçıq cümlələrin mənası da anlaşılmaz.

- *Nişanladıqları oğlan kimdir?*
- *Kolxozda mühasibdir.* [27]

İkinci cümlədə mübtəda ixtisar olunub. Yarımçıq cümlədə adətən buraxılan cümlə üzvləri və buraxılmış forma kontekstdə təsəvvür olunur. Mənaya xələl gəlmədən mətnin həcmi dəyişir

Paradiqmatik inkişaf meylinin təsiri altında ***morfolojiləşmə prosesi*** baş verir. Burada universal bir qanunauyğunluq özünü göstərir. Ardıcıl olaraq sintaktik kateqoriyalar morfoloji kateqoriyalara keçir, sıxılma baş verir. Morfolojiləşmə prosesi qrammatik quruluş kontekstinin müxtəlif sahələrində lokal

---

в свете тенденции современного синтаксиса русского языка // Известия ЮФУ. Филологические науки, - 2018. № 2, - с.145-152.

[26]Əhmədov, S.M. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 1. – 1989. – 462 s.

[27]Yenə orada. s. 92.

keyfiyyətlərə malikdir, lakin bir ümumi cəhət var ki, həmin proses mütləq cümlə hüdudunda getməlidir, yəni funksiyanın nəzarətindən kənara çıxa bilməz. Məs.:

1. *Elə sandı ki; sandı ki; san ki; sanki;*
2. *Onun üçün; onunçün; çünki və s.*

*O elə sandı ki, bu saat bibisinin ardınca şenliyin camaatı bura töküləcək, hamı onları daşqalaq edəcək*; *Birgə dolanışıq sanki məktəblə bağlı olan bütün əhvalatları, müəllimlər otağında və siniflərdə baş verən hadisələri unutdurmuşdu*; *Bu mühit onun üçün yoxsulun pis günündə pul tapmağı kimi oldu*; *Çünki şəhərdə onlardan az adam qalmışdı, qalanlarının da başı qarışıq idi.*[28]

Sintaktik kateqoriyaların morfolojiləşməsi qanunu sıxılma sistemi üçün universal olan paradiqmatik təkamül qanununun qrammatikanın spesifikası ilə koloritləşən konkret formasıdır; avtonomiyası bununla hüdudlanır. Sintaktik kateqoriyaların morfoloji kateqoriyalara çevrilməsi qrammatik sistemin elə bir inkişaf qanunudur ki, təkcə normativ vahidlərin deyil, anomaliyaların da meydana çıxması şərtlərini ifadə edir.[29]

Üçüncü fəslin ikinci paraqrafı **"Mürəkkəb cümlənin sadə cümləyə transformasiyası prosesində kondensasiya (sıxılma)"** adlanır. Burada qeyd olunur ki, çevrilmə nəticəsində mürəkkəb cümlələrin həcmi sıxılır, amma fikir bütöv şəkildə ifadə olunur. Bu məsələ tədqiqat əsərlərində *"sintaktik kondensasiya"* adlanır.

Sintaktik transformasiyanın dilin quruluşunda mühüm yeri və mövqeyi vardır. Sintaktik transformasiya ilə əlaqədar məsələlərdən biri sintaktik sinonimlik problemidir. Sadə və mürəkkəb cümlə səviyyələrində transformasiya, necə deyərlər, sıxılma hadisəsini törədir. Eyni zamanda, tabeli mürəkkəb cümlələrin transformasiyası, budaq cümlələrin feili tərkiblərə çevrilməsi, tabeli mürəkkəb cümlələrin tabesiz mürəkkəb cümlələrə çevrilməsi, sadə və mürəkkəb cümlələrin quruluşunun xüsusiyyətləri, onların

---

[28]Əhmədov, S.M. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 1. – 1989. – 462 s.

[29]Джафаров, Н.К. Структурно-семантическое развитие простых предложений на азербайджанском языке: /Автореф.дис.канд.филол.наук. /- Баку,1985.-17 с.

mürəkkəbləşdirilmiş üzvləri, müxtəlif sintaktik vahidlərin sərhədləri məsələlərinin öyrənilməsi də sıxılma hadisəsini doğurur.

***"Çevrilmə"*** termini ***"transformasiya"*** termini ilə bərabərhüquqa malikdir. Yəni eyni anlayışların terminoloji fərqliliyidir. Çevrilmənin müəyyənləşdirilməsi qarşılaşdırılan sadə və mürəkkəb cümlələrin yoxlanması nəticəsində mümkün olur. Yoxlamanın nəticəsi olaraq çevrilmə prosesi iki çıxış cümlədə mərkəzləşir.

1. Çevrilməyə qədərki forma: *Elə ki oğlan qəbul otağının astanasında dayanırdı, qadın çaşır, özünü itirir, boğazı quruyurdu*[30].

2. Çevrilmədən sonrakı forma: *Oğlan qəbul otağının astanasında dayananda qadın çaşır, özünü itirir və boğazı quruyurdu.*

Tabeli mürəkkəb cümlələrin sadələşdirilməsi sıxılmaya yol açır. Sıxılan məqamlardan biri üslubi məna çalarıdır. Bu məqamda iki cümlənin variantlarından biri ədəbi dilə, o birisi isə danışıq dilinə, üslubuna məxsus olur.

Sintaktik kondensasiya (sıxılma) hadisəsinə müasir Azərbaycan dilində zaman münasibəti ifadə edən mürəkkəb və sadə cümlələr arasında rast gəlmək olur. Zaman münasibəti bildirən tabeli mürəkkəb cümlələr zaman münasibəti bildirən sadə cümlələrlə əvəzlənir. Məs.: *Elə ki mina partladıcıdan xilas edilir, bundan sonra təhlükə yox olur.* [31] - *Mina partladıcıdan xilas ediləndən sonra təhlükə də yox olur.*

İ.Sizova bu sintaktik çevrilməni "substitusiya tipi" adlandırır. O, sintaktik transformasiyanın sıxılmanı yaradan üç növünü qeyd edir: rermutasiya, adyunksiya, ellipsis.[32]

Mürəkkəb cümlənin sadə cümləyə transformasiyası prosesində baş verən hadisələr kondensasiyaya səbəb olur. Transformasiya, reduksiya, ellipsis, söz sırasının dəyişdirilməsi və s. hadisələr böyük həcmdə olan mürəkkəb cümlənin sıxılmasına gətirib çıxarır. Bu prosesdə məna, intonasiya, iki və daha artıq predikativ

---

[30]Əhmədov, S.M. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 1. – 1989. – 462 s.

[31]Yenə orada. s. 76.

[32]Сизова, И.А. Что такое синтаксис / И.А.Сизова.– Москва: Наука, -1966. -71с

mərkəz, qrammatik cəhətdən vahid bir tam, mürəkkəb cümlənin tərkib hissələri, həmçinin də geniş cümlə müxtəsər cümlə şəklində sıxılır. Sıxılan hissələr ifadə etdiyi fikrə bərabər tutulur.

Üçüncü fəslin üçüncü paraqrafı **“Mətndə kondensasiyanın (sıxılmanın) təzahürü”** adlanır. Burada dialoji, monoloji və reklam mətnlərində baş verən kondensasiyanın təzahür nəticələrindən bəhs olunur. İnsanlar arasında mövcud olan dialoji münasibətlər dialoq vasitəsilə reallaşır və iştirak edən subyektlər bir-birinə təsir göstərərək, fikir mübadiləsi aparırlar.

Dialoq nitqin bir formasıdır, hansı ki, hər bir söyləm həmsöhbətə doğru yönəlir. Dialoq nisbi qısalığı, lakonikliyi ilə xarakterizə olunur və mətnin sintaktik quruluşunu, replikaları təmin edir.[33]

Dialoji nitqin başlıca imkanlarından biri informasiyanı sıxışdırılmış şəkildə təqdim etməkdir, bununla yanaşı, informasiyanın tez, konkret və lakonik şəkildə, adresatın (dinləyən) aydın qavraya biləcəyi sadə biçimdə verməsidir. İnformasiyanın məlum biçimdə verilməsi dialoq nitqinin leksik-semantik tərəflərinə öz təsirini göstərir. Dialoq şəratində sıxılmış şəkildə istifadə edilən dil vahidləri və onların mənaları həm adresant (danışan), həm də adresatdan ötrü dərkedilən olur. İki həmsöhbət arasında replikalar dialoq vasitəsilə qurulur. Məs.:

- *Qarajdan dünən axşam maşın çıxıb?*
- *Xeyr, çıxmayıb.* (mübtədanın, zərfliyin ixtisarı)
- *Gecə harada yatmısan?*
- *Evimizdə* (xəbərin, zərfliyin ixtisarı)
- *Siz məni tanımırsınız?*
- *Xatırlaya bilmirəm*[34] (tamamlığın ixtisarı)

Dialoq mətninin çox yayılmış, intişar tapmış görünüşü sual-cavab strukturudur. Sual və cavab dialoqun, replikanın başlıca vahididir. Dialoqun sual replikası, ümumiyyətlə, mətni yaradan, təfəkkürü genişləndirən, zənginləşdirən vasitələrdən biridir. Cavab vahidləri adətən yeni cümlələrdən qurulur. Bunlar çox vaxt yarımçıq

---

[33]Ахманова, О.С. Словарь лингвистических терминов (Изд-во 4-е, стереотипное) / О.С.Ахманова. - Москва: КомКнига, - 2007. - 576 с.

[34] Şıxlı, İ. Dəli Kür / İ.Şıxlı. – Bakı: Yazıçı, - 1983. – 435 s.

cümlədən təşkil olunur. Gözlənilən cavabın xarakteri həmsöhbətin fikir və məqsədindən asılı olaraq dəyişir.

Yarımçıq cümlələr cüttərkibli bütöv cümlələrin funksiyasını yeninə yetirir, ünsiyyət prosesində böyük rol oynayır. Cüttərkibli yarımçıq cümlələr daha çox dialoqlarda reallaşır, dildə kommunikativ vahid kimi sıxılmış durumda informasiya ötürür.[35]

Monoloq, ilk növbədə, daxili stimulla əlaqədardır, çünki danışan ifadə edəcəyi fikrin həcm və xarakterini müəyyənləşdirir, müəyyən fərdə və auditoriyaya müraciət etmək forması və dil materialı seçir, kimə müraciət edəcəyini və onların səviyyəsini, habelə danışığının dinləyicilərə necə təsir edəcəyini təsəvvüründə canlandırır.[36]

Monoloqda nitq söyləyən, danışan şəxs hər hansı bir fikri, məlumatı ardıcıl, rabitəli, geniş və ya qısa şəkildə ifadə edir. Monoloji nitqdə sözə qənaət etmək, təkrara yol verməmək, nitqin təbiiliyini və aktuallığını təmin etmək məqsədilə yarımçıq cümlələrdən istifadə edilir və istər-istəməz mətn sıxılır. Mətnin sıxılması şəkilçilərin, söz və söz birləşmələrinin ixtisarı nəticəsində baş verir. Məs: - *İndi qalmışam qara damın altında tək. Bilmirəm dulam, yoxsa gəlin.* - İkinci cümlənin ikinci hissəsində xəbərlik şəkilçisinin düşməsi sıxılmanı yaradıb.[37]

Yazılı nitqdə, xüsusən bədii ədəbiyyatda monoloqlardan istifadə olunur. Monoloq personajın daxili aləmini, onun məqsədini, hadisələrə münasibətini açır. Monoloq daha çox onun müəllifinin özünə ünvanlanır. Lakin digərlərinə ünvanlanan monoloqlar da az deyildir. [38]

Sosial media mətnlərində başlıq mətnin əsas məzmununu özündə əks etdirdiyi üçün qısa və yığcam şəkildə yazılmalıdır. Mətnin əsas mesajı, oxucunun diqqətini çəkən əsas fikir mətnin giriş

---

[35]Ахманова, О.С. Словарь лингвистических терминов (Изд-во 4-е, стереотипное) / О.С.Ахманова. - Москва: КомКнига, - 2007. - 576 с.

[36]Bayramov, A.Ə. Azərbaycan dili və nitq mədəniyyəti / A.Ə.Bayramov, Ə.M.Rüstəmli. - Sumqayıt: Zəka Print, - 2016. - 360 s.

[37] Şıxlı, İ. Dəli Kür / İ.Şıxlı. – Bakı: Yazıçı, - 1983. – 435 s.

[38] Avilova, Z.İ., Məmmədova, Z.B. Monoloji nitqin öyrənilməsinin əsas aspektləri // Elmi iş (beynəlxalq elmi jurnal), - 2020. № 02/51, - s. 27-30.

cümləsində yığcam şəkildə verilməlidir ki, izləyicinin (oxucunun) marağına səbəb olsun. Mətnin əsas hissəsi məlumatı daha ətraflı şəkildə təqdim edir. Burada konkret faktlar, rəqəmlər, təcrübələr, təhlillər və ya başqa məlumatlar yer alır. Əsas məzmun aydın, qısa cümlələrlə yazılmalı və asanlıqla anlaşılan bir şəkildə təqdim edilməlidir.

Emosional ton sosial media mətnləri üçün çox önəmlidir. Çünki insanlar adətən onlara təsir edən, onları güldürən, üzən və ya düşündürən paylaşımları daha çox bəyənir və izləyirlər:

"***Uğur formulu*** (başlıq)

*Uğur qazanmaq üçün atdığınız ilk addım sizə çətin gələ bilər. Amma qətiyyən geri addım atmayın. Xəyallarınızın arxasınca gedin. Heç nədən qorxmayın. Sonunda qalib olacaqsınız!* (giriş cümlə) " Facebook. – Başlıqdan da aydın olduğu kimi stimulverici, motivasiyaedici xarakterə malik olan bu mətn izləyicinin diqqətini cəlb etmək üçün sadə və müxtəsər cümlələrdən təşkil olunub.

Həm sosial media, həm televiziya, həm də küçə və yollardakı reklam sütunlarında əks olunan, sıxılmanın baş verdiyi müasir reklamların mətnləri də əsasən sadə cümlələrdən təşkil olunur. Bu da reklamların verdiyi mesajların daha anlaşılan olmasını, daha asan qavranılıb yadda saxlanılmasını və ifadə qabiliyyətinin artırılmasına kömək edir. Reklam mətnlərinin qısa, lakonik və yığcamlığı oxucu, dinləyici və izləyici tərəfindən daha yaxşı qəbul olunur.

*Hər gün. Ariel. Paltarın qüsursuz görünüşü. Uzun müddətə.* – Bu cür quruluşlu reklam mətnlərində cümlələrin bölünməsi və yaranan yarımçıq cümlələrin də sıxılması baş verir.

Sıxılan reklam mətnlərində müşahidə olunan çoxmənalılıq reklam mətnləri üçün qoyulan tələbləri yerinə yetirməyə xidmət edir. Belə ki, minimum reklam mətni maksimum məlumatı ötürmə funksiyasına malikdir. Sözlərin mənasının çevrilməsi, dəyişməsi, yeni məna kəsb etməsi fenomeni linqvistik manipulyasiya üsullarını və müxtəlif psixoloji təsir üsullarını özündə birləşdirən reklam mətnlərində kifayət qədər ümumi hadisədir. Bu hal yazılı formada verilən qəzet və küçə reklamlarında, eləcə də şifahi şəkildə nümayiş olunan radio və televiziya reklamları üçün də xarakterikdir:

*Haribodur onun adı. Original ayıcığı.*

*Gerçək meyvə suyu ilə. Doyulmazdır onun dadı.*
*Uşaq , ya da böyük ol. Haribo ilə xoşbəxt ol.*
*Qızıl ayıcıq, gerçək meyvə suyu ilə.*

Kompressiya (sıxılma) mexanizmi dilin müxtəlif səviyyələrində - semantik, sintaktik və sözyaradıcılığı səviyyələrində reallaşır. Reklam mətnlərində kompressiyanın reallaşması prinsipləri dilin qanunları çərçivəsində gözlənilir.[39]

Reklam (qəzet və küçə reklamlarında) mətnləri son dərəcə qısaldılır. Belə sıxılma qənaət prinsiplərinə əsaslanır. Sıxılma hadisəsi üslubyaradıcı amildir. Sıxılmış mətnlər vasitəsilə implisit informasiyalar verilir.

Diskurs geniş anlamda danışan və dinləyən (həmçinin də müşahidə edən) arasında müəyyən zaman və məkan daxilindəki ünsiyyət fəaliyyəti prosesində yaranan kommunikativ hadisə kimi dərk edilir. Kommunikativ təsir nitq və yazı formasında olub verbal (sözlü) və qeyri-verbal (sözsüz) tərkib elementlərini özündə birləşdirir.[40]

Qənaət prinsipinin müşahidə olunduğu ***diskurs*** da mətnin bir növüdür, dil fəaliyyətinin mühüm bir prosesi kimi görünür, eləcə də, bu hadisənin nəticəsidir. Diskursun strukturu tam olduğu kimi, sıxılmış durumda da olur. Sıxılmış vəziyyət əsla məna bitkinliyinə xələl gətirmir. Sıxılan mətnlər də iyerarxik formada özünü göstərir.

*Camaatı dolandırmaq lazımdır, camaatı. Bilirsiniz, kənddə camaatın rəyi çox şeyi həll edir. (O, gözünün altınca sədrə baxdı, sədr də ona baxırdı.) Əvvəllər bir qədər başqa cür idi, amma indi xalq...(Yenə aramla başını çevirib sədri görmək istədi. Sədr solmuş, üzülmüşdü.)*[41]

Qeyri-verbal ünsiyyət bədən dili və nitq parametrləri vasitəsilə həyata keçirilir. Bədən dili, başqa bir insana təsir edən

---

[39]Шокина, А.Б. Языковая компрессия в рекламном тексте // - Москва: Вестник Моск.Ун-та. Журналистика, - 2009. №2, сер.10. – с.189-195.

[40]Eminli, B.İ. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti / B.İ.Eminli, G.B.Paşayeva. - Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, - 2021. – 400 s.

[41]Əhmədov, S.M. Seçilmiş əsərləri [2 cilddə] / S.Əhmədov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - c. 2. – 1990. – 352 s.

verbal olmayan ünsiyyətlərin əsas komponentidir. Bura geyim, duruş, jestlər, bədən hərəkətləri, insanın fiquru, qaməti, üz ifadəsi, göz təması, şagird-tələbə məsafəsi və natiqlər arasındakı məsafə daxildir.[42]

Daha çox sıxılmaya məruz qalan monoloji və dialoji mətnlərdən fərqli olaraq danışanın nitqi ilə yanaşı, onun zahiri əlamətlərini, geyimini, davranışını, hərəkətlərini özündə birləşdirən diskurs mətnləri verbal və qeyri-verbal nitq elementlərinin vəhdətindən yaranmışdır. Bu da həmin mətnlərin oxucu tərəfindən daha düzgün və daha yaxşı dərk olunmasına şərait yaradır.

**Tədqiqat işindən əldə edilmiş nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:**

1. Aktual üzvlənmə mətnin açarıdır. Aktual üzvlənmə başlıca olaraq funksional-kommunikativ aspektlə əlaqədar olaraq nitq prosesində cümlənin mövqeyini müəyyənləşdirir. Cümlənin aktual üzvlənməsi sözlərin ardıcıllığı ilə bağlıdır. Aktual üzvlənmədə semantik struktur əsas olduğundan mətndəki cümlələrin ardıcıllığı da ona əsaslanır.
2. Dilin mürəkkəb quruluşundan bəhs edən sintaksisin əsas tədqiqat obyekti söz birləşmələri və cümlə olduğu halda, nitqin quruluş əlaqələrindən bəhs edən sintaksisin əsas tədqiqat obyekti isə söyləmdir. Tema və rema hissələrindən ibarət olan söyləm cümləyə uyğun gəlsə də, əsasən söz sırası və intonasiyanın köməyilə yaranır.
3. Məna və məzmun açıq şəkildə ifadə olunmayan implikasiyada deyilən üstüörtülü ifadələrlə danışan öz fikrini qarşı tərəfə çatdıra bilir. Bu üstüörtülülük də mətndə kondensasiyaya (sıxılmaya) səbəb olur.
4. Sıxlaşdırılmış mənasını ifadə edən, dil hadisəsi olan kondensasiya (sıxılma) nitqin aktuallığı ilə bağlıdır. Nitqin tez çatdırılması, yığcamlığı, qənaəti təmin etmək bu prosesin xarakterini müəyyənləşdirən başlıca faktorlardandır. Kondensasiyanın növləri

[42]Eminli, B.İ. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti / B.İ.Eminli, G.B.Paşayeva. - Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, - 2021. – 400 s.

olan semantik, sintaktik və sintaqmatik kondensasiyada dil vasitələri sıxılsa da, informasiya tam çatdırılır.

5. Kondensasiyanın (sıxılmanın) aktual üzvlənmə ilə bağlılığı tema-rema münasibətlərində meydana çıxır. Yəni mətnin mövzusu semantik cəhətdən yığcamlaşır, artıq elementlər, konstruksiyalar atılır. Ona görə də mətnin aktual üzvlənməsi, tema-rema əvəzlənməsi mətnin semantikasının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

6. Aktual üzvlənmə və nitq yaradıcılığı bir-birilə sıx şəkildə bağlıdır. Bu bağlılıq kommunikasiya prosesində fikrin, informasiyanın sıxılmış vəziyyətdə çatdırılmasının mühüm önəm daşımasını şərtləndirir. Nitqdə müşahidə olunan artıq elementlərin ixtisarı, mətndə maksimum informasiyanın saxlanması milli-fərdi təzahürlərin başlıca göstəricisi kimi təqdim olunur.

7. Univerballaşma semantik sıxılma hadisəsini səciyyələndirir, habelə formal əlamətin itirilməsi prosesində mənaya xələl gəlmir. Univerballaşma müasir sözyaradıcılığında aktiv proseslərdəndir. Univerbasiya abrevasiyanın bir forması olaraq, dil vahidini sıxır. Sıxılaraq yeni dil vahidi yaranır. Bu proses daha çox danışıq nitqi üçün səciyyəvidir. Dil qənaət vasitəsi kimi doğulur, həmçinin yığcamlıq və ekspressivlik əmələ gətirir.

8. Cümlədə kondensasiyanın (sıxılmanın) təzahür formaları elliptik, yarımçıq cümlələrdə, parsellərdə, qoşulma hadisəsində, morfolojiləşmə prosesində özünü göstərir. Bu tip cümlələr mühüm ünsiyyət vahidi olmaqla yanaşı, həm fikir mübadiləsi prosesində, həm də, humanist duyğuların, daxili sarsıntıların, emosiyaların və s. durumların təzahürü anında istifadə olunur.

9. Mətndə kondensasiyanın (sıxılmanın) təzahür formaları dialoji, monoloji, sosial media, reklam mətnlərində və diskursda özünü göstərir. Yarımçıq, vokativ, söz cümlələr, qoşulma konstruksiyalarla formalaşan bu tip mətnlər dil işarələrinin azalmasına baxmayaraq, fikir tamlığı ilə də fərqlənir.

10. Mürəkkəb quruluşlu cümlələrin sadə cümlə şəklinə transformasiyası və onun nəticəsində sıxılması prosesi müasir Azərbaycan dili materiallarına istinadən öyrənilir. Sadələşmə prosesində mürəkkəb cümləni sadə cümlədən fərqləndirən əsas amillərin heç də ifadə olunan fikrin mürəkkəbliyi, çoxşaxəliliyi ilə

deyil, struktur mürəkkəblikdən irəli gəldiyi əsaslandırılır. Sıxılsa da, sıxılmasa da, eyni informasiya mürəkkəb cümlədə də, sadə cümlədə də verilə bilir. Tərkibində müəyyən fərqlər olsa da, informativ yük demək olar ki, hər iki cümlə strukturunda eynidir.

**Tədqiqat işinin əsas nəticələri aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**


1. Sintaksis – nitqin quruluş əlaqələrini öyrənən bölmə kimi // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2016. 2 (98), - s.123-125.
2. Dilçilikdə kondensasiya anlayışı // Müasir dilçiliyin aktual problemləri mövzusunda Beynəlxalq Elmi konfransın materialları, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 2016, - s. 322-323.
3. Qrammatik və aktual üzvlənmə // - Sumqayıt: Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi, - 2017. c. 13, № 4, - s.30-33.
4. Üslubi sintaksis // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2017. 2 (102), - s.14-17.
5. Cümlə və söyləm // Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları, - Bakı: Azərbaycan Universiteti, - 20 aprel, - 2018, - s. 206-207.
6. Mətnin aktual üzvlənməsi // - Bakı: Filologiya məsələləri, - 2018. № 7, - s.177-187.
7. Mətnin psixolinqvistik qavranılması // Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər beynəlxalq elmi konfransın materialları, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 19-20 dekabr, - 2019, - s.229-230.
8. Kondensasiya hadisəsinin dil və nitq sistemində yeri // - Bakı: Terminologiya məsələləri, - 2020. № 1, - s.137-147.
9. Dialoji mətnlərdə kompressiya – sıxılma hadisəsinin təzahürü (Azərbaycan dili mətnləri əsasında) // - Sumqayıt: Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi, - 2020. c.16, № 3, - s.20-26.
10. Актуальное членение и процесс речетворчества в азербайджанском языке // - Киев: Вiсник. Унiверситету iменi

Альфреда Нобеля, серія: Філологічні  науки, - 2020. 1(19), - с. 204-211.

11. Correlation of compression and actual division in the text // - Çanakkale: IV İnternational conference on awareness. Language and awereness, - 2020, 02-04 December, (IV Uluslararası farkındalık konferansı. Dil ve farkındalık, - 2020, 02-04 Aralık), Abstracts (Özetler), p. 90-91.

12. Mürəkkəb cümlələrin sadə cümləyə çevrilməsi prosesində kondensasiya hadisəsinin təzahürü // Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri. Beynəlxalq elmi konfrans, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 20-21 may, 2021. № 4, - s. 667-671.

13. Ellpsis – kondensasiya hadisəsi kimi // Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı. Beynəlxalq Elmi konfrans, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti - 28-29 oktyabr, - 2021. № 6, - s. 483-485.

14. Cümlənin qurulmasında aktual üzvlənmənin rolu // Qloballaşma şəraitində müəllim şəxsiyyətinin formalaşdırılmasında pedaqogika və psixologiya elmlərinin yeri və rolu. Respublika Elmi Konfransı, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 28-29 aprel, - 2022. № 4, - s. 316-319.

15. Parselyasiya və kondensasiya (sıxılma) hadisəsi // - Türkey: VI İnternational conference on awareness. Proceeding Book. Language and awereness, - 2020, October, (VI Uluslararası farkındalık konferansı. Dil ve farkındalık), Abstracts and Proceeding Book, - p. 169-170.

16. Diskursda mətnlərin kondensasiyası (sıxılması) // Universitet elminin və təhsilinin müasir problemləri (Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyinə həsr olunur). Respublika Elmi Konfransı, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 17-18 noyabr, -2022, - s. 106-108.

17. İmplikasiya ilə kondensasiyanın əlaqəsi // Heydər Əliyev və Türk dünyası: ictimai, iqtisadi və mədəni əlaqələr. Beynəlxalq Elmi konfrans, - Sumqayıt: Sumqayıt Dövlət Universiteti, - 04-05 may, - 2023, - s. 385-387.

18. Dependence of inclusiveness in education on speech

activity // - Colloquium-journal, Warszawa, - 2024. №30 (223), - p. 9-12

19. Condensation in advertising texts // - Иноязычное образование в современных реалиях: проблемы и векторы развития. Международная научно-практическая конференция, Казань, - 2025, p. 50-52

Dissertasiyanın müdafiəsi 11 aprel 2025-ci il tarixində saat $11^{20}$-da Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə. Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universietinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universietinin rəsmi saytında (www sdu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.03.2025

Kağızın formatı: 60*84 $^{1/16}$

Həcm: 41342

Tiraj: 100